
Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 87 (22.998)

10 may 2018-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qәpik


## Rəsmi xronika

İkinci Dünya müharibəsində faşizm üzərində Qələbənin 73-cü ildönümü münasibətilə mayın 9-da Bakıda təntənəli mərasim keçirilib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Prezident, Ali Baş Komandan İlham Əliyev iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun abidəsi önünə əklil qoyub, İkinci Dünya müharibəsində misilsiz qəhrəmanlıqlar göstərən cəsur sərkərdənin xatirəsini ehtiramla yad edib.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun ailə üzvləri, yaxın qohumları ilə görüşüblər, Qələbə Günü münasibətilə onları təbrik ediblər.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il 9 may tarixli Sərəncamı ilə səhnə fəaliyyəti ilə bağlı aparıcı incəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatları verilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikasının incəsənət xadimləri də vardır.

**Ağasoy Həsən Vəliqulu oğlu**
**Babayev İlqar Hüseyn oğlu**
**Dünyamalıyev Rəhman Musa oğlu**
**Əliyev Yusif Məmiş oğlu**
**Fətəliyev Zakir Məhərrəm oğlu**
**İsmayılov Rauf Fəxrəddin oğlu**
**Kərimova Elmira Nəsir qızı**
**Quliyeva Aynurə Arif qızı**
**Novruzov Əfsər Dilavər oğlu**
**Seyidov İxtiyar Mircəfər oğlu**

## Naxçıvanda 9 May Qələbə Günü qeyd olunub

Mayın 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan şəhərindəki Xatirə kompleksinə gələrək müharibə veteranları ilə görüşmüş, onları İkinci Dünya müharibəsində faşizm üzərində Qələbənin 73-cü ildönümü münasibətilə təbrik etmişdir.

Ali Məclisin Sədri kompleksdəki abidənin önünə gül dəstəsi qoymuş, müharibədə həlak olmuş azərbaycanlıların xatirəsinə dərin ehtiramını bildirmişdir.

Sonra Dövlət Himni səslənmişdir.

Mərasim iştirakçıları və ictimaiyyətin nümayəndələri abidə önünə gül dəstələri düzmüşlər.

Azərbaycan xalqı faşizm üzərində tarixi Qələbəyə mühüm töhfələr vermiş, cəbhəyə 640 mindən çox oğul və qızını yola salmışdır. Azərbaycanlı çağırışçı və könüllülərdən ibarət 77-ci, 223-cü, 336-cı, 402-ci və 416-cı atıcı diviziyalar Şimali Qafqazdan Berlinədək şanlı







döyüş yolu keçmişdir. İkinci Dünya müharibəsində Qələbənin qazanılmasında Bakı nefti də əvəzsiz rol oynamışdır. Həmçinin akademik Yusif Məmmədəliyevin rəhbərliyi altında Azərbaycanın kimyaçı alimləri xüsusi təyinatlı yanacaq və şaxtayadavamlı sürtkü yağlarının, eləcə də partlayıcı maddələrin istehsalını təmin etməklə Qələbəyə öz töhfələrini vermişlər. Müharibə illərində göstərdikləri igidliyə görə 130-dan çox Azərbaycan vətəndaşı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilmişdir.

Naxçıvanlılar da müharibədə qəhrəmancasına döyüşmüş, Qələbənin qazanılmasına öz töhfələrini vermişlər. 402-ci diviziya Naxçıvanda formalaşdırılaraq cəbhəyə yola salınmış, göstərdikləri igidliklərə görə 3 həmyerlimiz Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş, bir nəfər "Şöhrət" ordeninin hər üç dərəcəsi, müharibə iştirakçılarından 600-ə yaxını isə orden və medallarla təltif olunmuşdur.

Ölkəmizdə müharibə veteranlarına xüsusi diqqət və qayğı göstərilir. Bu diqqət və qayğının əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuşdur. Ulu öndərimiz Naxçıvan Muxtar Respublikasının rəhbəri olarkən muxtar respublikada bu bayram qeyd olunmuş, görkəmli dövlət xadiminin Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra isə 9 May ölkəmizdə Qələbə Günü kimi rəsmiləşdirilmiş, dövlət bayramları sırasına daxil edilmiş, müharibə veteranlarının sosial müdafiəsi gücləndirilmişdir. Ümummilli liderimiz Heydər Əliyev deyirdi: ***"Veteranlar bizim qızıl fondumuzdur. Onlar hər cür qayğıya və hörmətə layiqdirlər. Azərbaycanın bütün ictimaiyyəti, bütün Azərbaycan xalqı bilməlidir ki, İkinci Dünya müharibəsinin veteranları bizim ən əziz, ən mötəbər insanlarımızdır. Onlara qayğı göstərmək, hörmət etmək, onların bütün problemlərini həll etmək bizim dövlətimizin və hər bir dövlət orqanının, hər bir Azərbaycan vətəndaşının borcudur".***

Ümummilli lider Heydər Əliyevin siyasi xəttini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev İkinci Dünya müharibəsinin ağır və çətin sınaqlarından keçmiş veteranlara xüsusi qayğı və həssaslıqla yanaşır. Ölkə Prezidentinin "1941-1945-ci illər İkinci Dünya müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonradan vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında" 2018-ci il 20 aprel tarixli Sərəncamı bu təbəqədən olan vətəndaşlara göstərilən qayğının daha bir ifadəsidir.

Naxçıvan Muxtar Respublikasında da müharibə veteranlarına xüsusi qayğı ilə yanaşılır, onların sosial müdafiəsi gücləndirilir, veteranlar sanatoriya və kurortlara göndərilir, minik avtomobilləri ilə təmin olunurlar.

Həmin gün Naxçıvan Muxtar Respublikasının rayon mərkəzlərində də faşizm üzərində qələbənin 73-cü ildönümü münasibətilə tədbirlər keçirilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Heydər Əliyev Universitetinin növbəti məşğələsi keçirilib

Naxçıvan Dövlət Universitetində fəaliyyət göstərən Heydər Əliyev Universitetinin 222-ci məşğələsi keçirilib. "Ümummilli lider Heydər Əliyevin milli dövlətçilik ənənələri və varislik" mövzusuna həsr olunmuş məşğələni açan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov ulu öndərin memarı və qurucusu olduğu Azərbaycan Respublikasının müstəqilliyinin qorunub saxlanılmasındakı misilsiz xidmətlərindən danışıb, onun milli dövlətçilik konsepsiyasından bəhs edib.

Vurğulanıb ki, ölkəmizin müstəqilliyinin əsasları dahi şəxsiyyətin uzaqgörənliyi sayəsində hələ ötən əsrin 70-ci illərində qoyulub. Məhz həmin dövrdən başlayaraq elm, təhsil, mədəniyyət və digər sahələrin inkişafında ciddi nailiyyətlər əldə edilib, Azərbaycan dili rəsmi dövlət dili kimi təsbit olunub, milli kadrların hazırlanması üçün mühüm addımlar atılıb. Ümummilli liderin ***"İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm"*** sözlərini xatırladan rektor cənab İlham Əliyevin növbəti prezident seçkilərində də qalib gəlməsini Heydər Əliyev ideyalarının təntənəsi, xalqın bu ideyalara daim sadiq qalacağını təsdiqləyən amil olduğunu qeyd edib.

"O siyasi lider xoşbəxtdir ki, onun davamçısı, ideyalarını daha irəli aparacaq varisi vardır", – deyən Azərbaycan tarixi kafedrasının müdiri, AMEA-nın müxbir üzvü Zəhmət Şahverdiyev çıxışında bildirib ki, ümummilli lider siyasi varislik prinsipi baxımından mükəmməldir, əbədiyaşardır.

Qeyd olunub ki, ümummilli lider Heydər Əliyevin milli dövlətçilik ənənələrinin, sosial-iqtisadi inkişaf strategiyasının uğurla davam etdirilməsi ölkənin çoxcəhətli siyasi-iqtisadi inkişafını təmin edib. Bu inkişaf muxtar respublikanı da hərtərəfli tərəqqiyə qovuşdurub.

Sonda ümummilli liderin həyat və fəaliyyətindən bəhs edən "Heydər Əliyev – dahi şəxsiyyət" filmi nümayiş olunub.

**Səadət ƏLİYEVA**

# Əbədiyaşar lider

***Xalqın və ölkənin çətin günlərində öz xilaskarlıq missiyasını yerinə yetirən liderlər adlarını mənsub olduğu xalqın tarixinə əbədi yazırlar. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev də belə şəxsiyyətlərdəndir. Görkəmli dövlət xadimi Heydər Əliyev yeganə dünya şöhrətli siyasi xadimdir ki, bir-birindən fərqli üç mürəkkəb siyasi-tarixi mərhələdə – 1969-1987, 1990-1993 və 1993-2003-cü illərdə eyni qətiyyətlə möhtəşəm siyasi uğurlara imza atmışdır.***

1923-cü il mayın 10-da Azərbaycanın qədim Naxçıvan diyarında dünyaya göz açan, gəncliyindən öz dərin zəkası və fitri istedadı ilə seçilən, sovet dövlət təhlükəsizlik orqanlarında çalışmaqla siyasi yetkinlik qazanan, dövlət idarəçiliyi sirlərinə yiyələnən ulu öndər Heydər Əliyev deyirdi: ***"Mən balaca bir evdə, zəhmətkeş ailəsində, bir yaz günü dünyaya göz açmışam. Anadan olanda, yəqin ki, beş-on, uzağı otuz-qırx nəfər sevinib. İndi, bəlkə də, bir o qədər qeyri-təvazökar səsləndi, amma deməliyəm ki, anam məni bütövlükdə Azərbaycanımız üçün dünyaya gətirib. Doğma, canımvarlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır. Bütün şüurlu ömrümü onun inkişafına, tərəqqisinə həsr etmişəm".***

Ulu öndərin 1969-1982-ci illərdə Azərbaycanın rəhbəri kimi fəaliyyəti tənəzzül içərisində olan Sovet Azərbaycanı üçün dirçəliş dövrü kimi tarixə düşmüşdür. O dövrdə dahi rəhbər sənaye və kənd təsərrüfatının inkişafına yönəlmiş çox mühüm qərarlar qəbul etmiş, bunun nəticəsində Azərbaycanda 250-dən çox yeni sənaye müəssisəsi işə salınmış, 14 il ərzində 1048 sənaye obyekti tikilmişdir. Dahi şəxsiyyətin milli kadrların formalaşdırılması istiqamətində apardığı işlər, həyata keçirdiyi məqsədyönlü siyasət xalqımızın gələcək müstəqilliyinə hədəflənmiş, milli özünüdərkin əsasını qoymuşdur. Bu dövrdə elm, təhsil, səhiyyə və mədəniyyətə qayğı da ön planda olmuşdur. Azərbaycanın bugünkü hərbi uğurlarının, milli hərbi kadrların formalaşdırılmasının əsası da ümummilli liderin qeyri-adi cəsarəti, şəxsi təşəbbüsü ilə 1971-ci ildə Azərbaycanda ilk hərbi məktəbin yaradılması ilə qoyulmuşdur.

Ümummilli lider 1982-1987-ci illərdə Siyasi Büronun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi yüksək dövlət vəzifələrində fəaliyyət göstərəndə də Azərbaycanın mənafeyini üstün tutmuş, keçmiş ittifaqın maddi resurslarının respublikamızın inkişafına yönəldilməsinə nail olmuşdur.

Xalqımızın böyük oğlu 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq tutduğu vəzifələrdən istefa vermişdir. Azərbaycana edilmiş hərbi təcavüzdən – 1990-cı ilin 20 Yanvar faciəsindən sonra Sovet rəhbərliyini kəskin ittiham edən ulu öndərə qarşı böyük təzyiqlər başlandı. Moskvadan Bakıya – canı, varlığı qədər sevdiyi doğma Azərbaycanına dönən, ağır gündə öz xalqından ayrı yaşaya bilməyən ulu öndər burada da totalitar rejimin və onun yerli əlaltılarının xəyanətkar hərəkətləri ilə üzləşdi. Dahi rəhbər 1990-cı il iyul ayının 22-də doğma Naxçıvana qayıtdı.

Ümummilli liderin Naxçıvana dönüşü tarixi zərurət idi. Həmin dövrdə Naxçıvanda mürəkkəb ictimai-siyasi şərait hökm sürürdü: Sovet İmperiyası rəhbərliyi Azərbaycanın maraqlarına zidd siyasətindən əl çəkmir, sərhədlərdə hərbi toqquşmalar baş verir, Naxçıvan blokadanın yaratdığı sosial-iqtisadi tənəzzül, ictimai-siyasi anarxiya və işğal təhlükəsi altında yaşayırdı. İqtisadi və siyasi böhran içində boğulan, erməni təcavüzü qarşısında əliyalın və köməksiz vəziyyətdə qalan Naxçıvan öz xilasını gözləyirdi. 30 sentyabr 1990-cı ildə keçirilən seçkilərdə ulu öndər yekdilliklə Azərbaycan SSR-in və Naxçıvan MSSR-in deputatı seçildi. 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ulu öndərin sədrliyi ilə keçirilən ilk sessiyasında təkcə Naxçıvan üçün deyil, ümumən, Azərbaycan üçün son dərəcə böyük əhəmiyyətə malik olan taleyüklü qərarlar qəbul edildi. Sessiyada Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "Sovet Sosialist" sözləri çıxarılmış, Naxçıvan MSSR Ali Soveti Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırılmışdır. Bu gün ən mötəbər beynəlxalq məclislərdə dalğalanan, paytaxt Bakının və Naxçıvan da daxil olmaqla, Azərbaycanın digər bölgələrinin dövlət bayrağı meydanlarında vüqarla göylərə yüksələn, milli istiqlal rəmzi olan üçrəngli bayrağımız ilk dəfə bu sessiyanın tarixi qərarı ilə Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edilmiş, həmin bayrağın Azərbaycan Respublikasının rəsmi dövlət rəmzi kimi tanınması haqqında Azərbaycan SSR Ali Soveti qarşısında vəsatət qaldırılmışdı.

Muxtar respublikanın əsl xilas və tərəqqisinin yalnız ümummilli liderimizin dühası sayəsində mümkün olduğunu çox yaxşı bilən Naxçıvan əhalisinin təkidli tələbi ilə 1991-ci ilin 3 sentyabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinə Sədr seçilən görkəmli dövlət xadimi Naxçıvanı xalqımızın demokratiya və müstəqillik uğrunda mübarizə mərkəzinə çevirmişdi. Bu gün 700 minə yaxın siyasi həmfikri öz ətrafında birləşdirən, iqtidar partiyası kimi liderliyini qoruyub saxlayan Yeni Azərbaycan Partiyasının təsis edilməsi, az vaxt ərzində böyük nüfuz qazanması da ulu öndərin siyasi fəaliyyətinin Naxçıvan dövrünün bəhrəsidir. 31 dekabrın "Dünya Azərbaycanlılarının Həmrəylik Günü" kimi qeyd olunması ilə bağlı qərarla dünya azərbaycanlılarının milli həmrəylik ideologiyasının təməli də həmin dövrdə Naxçıvanda qoyulmuşdur. Rus qoşun hissələri muxtar respublikadan çıxarılmış, Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin təşkili ilə Naxçıvanın müdafiəsi üçün sistemli tədbirlər görülmüş, ölkəmizdə ilk dəfə Naxçıvanda nizami ordu hissələri yaradılmışdı. Ulu öndər 1992-ci ildə tarixi Moskva və Qars müqavilələrini gündəmə gətirməklə Ermənistanın təcavüzkar siyasətini, Naxçıvanın muxtariyyət statusunu, əzəli Azərbaycan torpağı kimi toxunulmazlığını beynəlxalq miqyasda bir daha təsdiqləmişdir. Bu dövrdə ağır blokada şəraitində olan muxtar respublika iqtisadi böhrandan çıxarılmış, çoxcəhətli inkişafa nail olunmuşdur. Dahi öndərin Naxçıvandakı siyasi fəaliyyəti ərzində ərazinin erməni işğalından müdafiəsi, milli şüurun dirçəlişi, milli dövlət strukturlarının formalaşması kimi mühüm tarixi nailiyyətlər əldə olunmuş, xalqla həmrəyliyin təntənəsi öz təsdiqini tapmışdır. Azərbaycanın müstəqillik yolu 1991-ci ildə Sovet İttifaqının saxlanması üçün keçirilən qanunsuz referenduma "Yox!" deməklə məhz Naxçıvandan başlanmışdır. Müstəqilliyin başlanğıc illərində ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan Azərbaycanın əsl dövlətçilik məktəbi funksiyasını həyata keçirmişdir. Bu böyük tarixi şəxsiyyət, siyasi xadim Naxçıvanı qoruduğu kimi, Naxçıvan da öz dahi oğlunu tarixin ən sərt sınağında qədirbilənliklə qoruyub yenidən Azərbaycana bəxş etmişdir.

Ümummilli lider Heydər Əliyevin xalqın təkidi ilə Bakıya qayıdışı elə bir tarixi dövrə təsadüf edirdi ki, torpaqlarımızın Ermənistan tərəfindən işğalı, vətəndaş qarşıdurması Azərbaycanı dövlət müstəqilliyini itirmək kimi sonu görünməyən bir uçurum qarşısında qoymuşdu. Ölkəni bu vəziyyətdən yalnız siyasi təcrübəyə, diplomatik qabiliyyətə malik rəhbər xilas edə bilərdi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bu barədə demişdir: ***"Azərbaycanın müasir tarixi dəfələrlə sübut etmişdir ki, xalqın gücü ümummilli lider Heydər Əliyevdə olduğu kimi, ümummilli lider Heydər Əliyevin də gücü Azərbaycan xalqındadır. Xalqın təkidli tələbi ilə 1993-cü il iyunun 15-də ulu öndərimizin ikinci dəfə ali hakimiyyətə qayıdışı Azərbaycanı dağılmaq, bir dövlət kimi siyasi xəritədən silinmək təhlükəsindən xilas etdi. 15 iyun ən yeni tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu".***

1993-cü ilin 15 iyununda Milli Məclisin Sədri, həmin ilin 3 oktyabrında xalqın böyük dəstəyi ilə ölkə Prezidenti seçilən görkəmli dövlət xadimi on il ərzində əsrlərə bərabər işlər görmüş, müstəqil Azərbaycanın xilaskarı və qurucusu kimi böyük tarixi missiyanı uğurla həyata keçirmişdir. Məhz Heydər Əliyev dühası Azərbaycan xalqını, Azərbaycan dövlətçiliyini, o cümlədən Azərbaycanın iqtisadiyyatını dağılmaq, məhv olmaq təhlükəsindən xilas etmişdir.

Ulu öndər Heydər Əliyevin apardığı uğurlu siyasət nəticəsində ölkəmizdə demokratik cəmiyyət quruculuğuna nail olunmuşdur. Görkəmli dövlət xadiminin rəhbərliyi ilə işlənib hazırlanan və 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edilən Konstitusiya Azərbaycanın hüquqi, demokratik dövlət quruculuğu yolunu müəyyənləşdirdi. Ümummilli lider ölkəmizin bugünkü yüksək beynəlxalq nüfuzunun əsasını yürütdüyü tarazlaşdırılmış və çoxqütblü xarici siyasətlə qoymuşdur. Bu uğurlu siyasət nəticəsində dünyanın aparıcı dövlətləri və şirkətləri siyasi sabitliyə və dinamik inkişafa nail olmuş Azərbaycanı etibarlı tərəfdaş kimi qəbul etmiş, beynəlxalq müqavilələrin bağlanılması, ölkəyə xarici investisiyanın cəlb edilməsi yolu ilə iqtisadi tərəqqiyə, əhalinin rifah halının yüksəldilməsinə nail olunmuşdur.

Görkəmli dövlət xadimi Heydər Əliyevin bütün siyasi uğurlarının əsasını təşkil edən, ONU dünya azərbaycanlılarının ümummilli lideri səviyyəsinə yüksəldən milli dövlətçilik təlimi, Azərbaycançılıq məfkurəsidir. Azərbaycançılıq ideyasını siyasi ideologiya səviyyəsinə məhz dahi Heydər Əliyev çatdırmışdır.

Müstəqil Azərbaycan dövlətinin qazandığı tarixi nailiyyətlər, böyük zəfərlər ümummilli lider Heydər Əliyev dühasının təntənəsidir. Məhz ulu öndərimizin zəngin siyasi təcrübəsi və uzaqgörənliyi sayəsində Azərbaycanda sabitlik, tolerantlıq, müasir inkişaf və tərəqqi təmin edilmişdir. Görkəmli dövlət xadiminin bir böyük tarixi uğuru da özündən sonra müstəqil Azərbaycanın xoşbəxt və firavan gələcəyinin etibarlı təminatına çevrilən mükəmməl siyasi-ideoloji məktəb yaratması idi.

Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə iqtisadi cəhətdən güclü, siyasi cəhətdən isə tam müstəqil dövlətə çevrilmiş Azərbaycanın mövqeyi regional və beynəlxalq məsələlərdə mütləq nəzərə alınır. Azərbaycan Cənubi Qafqazın lider dövlətinə çevrilib. 2011-ci ildə ölkəmiz 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildi. Bu, Azərbaycanın artan mövqeyinin, nüfuzunun göstəricisi idi. Diplomatik mübarizədə qələbə və iqtisadi imkanların artması fonunda ordumuzun maddi-texniki bazasının möhkəmləndirilməsi, gücünün, qüdrətinin artması, Azərbaycanın hərb tarixinin ən şanlı səhifələrindən olan 2016-cı ilin aprel döyüşləri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə, Azərbaycanın böyük qələbəsinə inamı artırır.

Ümummilli liderin həmişəyaşar siyasi kursunun yeni dövrün, dünyəvi proseslərin reallıqları kontekstində uğurla inkişaf etdirilməsinin, 15 illik möhtəşəm tərəqqi yolunun nəticəsidir ki, Onun layiqli siyasi varisi cənab İlham Əliyev 11 aprel 2018-ci il tarixdə keçirilən növbəti prezident seçkilərində də inamla qələbə qazanmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev andiçmə mərasimindəki nitqində demişdir: ***"Mən ulu öndər Heydər Əliyev siyasətinə sadiq qalacağam, bu siyasəti davam etdirəcəyəm. Mən fəxr edirəm ki, xalq mənə inandı, məni dəstəklədi və mən də öz növbəmdə sözlərimə əməl etdim. Son 15 il ərzində Azərbaycanda hərtərəfli inkişaf təmin edilmişdir. Bunun əsas şərti ondan ibarətdir ki, biz ulu öndərin yolu ilə gedirik. Onun qoyduğu yol yeganə düzgün yoldur və Azərbaycanın müstəqillik tarixi bunun əyani sübutudur".***

Azərbaycanımızın ayrılmaz hissəsi olan, Heydər Əliyev ideyalarının sarsılmaz sədaqətlə davam etdirildiyi Naxçıvan Muxtar Respublikası da bu gün öz inkişaf dövrünü yaşayır. Qədim diyarımız uzun illərin blokada şəraitinə baxmayaraq, sürətli tərəqqi yolundadır. Aparılan genişmiqyaslı quruculuq işləri, muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı, əhalinin həyat səviyyəsinin əhəmiyyətli dərəcədə yaxşılaşması buna parlaq sübutdur. Müasir Naxçıvan dünyaya blokada şəraitində inkişafın nadir nümunəsini təqdim edir. Bu nümunənin əsasında isə ulu öndər Heydər Əliyevin ideyaları dayanır.

***Nə qədər ki müstəqil Azərbaycan dövləti, Azərbaycan xalqı var, ulu öndər Heydər Əliyev də var olacaq və yaşayacaqdır.***

**Mehriban SULTAN**

# Qələbə bayramı muxtar respublikamızın şəhər və rayonlarında yüksək əhval-ruhiyyə ilə qeyd edilib

## Şərur rayonu

***Alman faşizmi üzərində tarixi Qələbənin ildönümü Şərur rayonunda bu il də geniş şəkildə qeyd edilib. Tədbir iştirakçıları əvvəlcə Şərur şəhərində 1941-1945-ci illər müharibəsi qurbanlarının xatirəsinə ucaldılmış abidəni ziyarət edib, abidə önünə tər güllər düzüblər.***





Şərur Olimpiya-İdman Kompleksində davam etdirilən tədbirdə əvvəlcə Şərur Rayon İcra Hakimiyyətinin başçısı Kamal Cəfərov çıxış edərək faşizm üzərində Qələbənin qazanılmasında azərbaycanlıların da göstərdikləri misilsiz igidlik və qəhrəmanlıqları, respublikamızın bu müharibədə təkcə canlı qüvvə ilə deyil, təbii resursları ilə də fəal iştirak etdiyini faktlarla nəzərə çatdırıb.

Vurğulanıb ki, faşist ordusu 1941-ci il iyun ayının 22-də Sovet İttifaqına qəflətən hücum edib. Bu müharibədə Hitlerin əsas məqsədi qısa müddətdə, daha dəqiqi, 1941-ci il sentyabrın sonunadək Bakını ələ keçirmək, burada çıxarılan və emal olunan nefti alman şirkətlərinin istifadəsinə vermək idi. Lakin onlar bu məqsədlərinə çata bilmədilər. Müharibədə 300 mindən çox azərbaycanlı həlak oldu. Döyüşən orduda iştirak edən ağır hərbi texnika, xüsusilə təyyarələr Bakı nefti ilə işləyirdi. Arxa cəbhədə fədakarlıq göstərən azərbaycanlılar isə ordunu müxtəlif isti paltarlar, ərzaq məhsulları, digər zəruri ləvazimatlarla təmin edirdilər.

Kamal Cəfərov deyib ki, Şərur rayonundan müharibəyə gedən 4 min 7 nəfərin 394-ü həlak olub, 1395 nəfəri itkin düşüb. Müharibədən 2 min 218 nəfər doğma yurduna qayıda bilib. Hazırda rayonda 6 müharibə iştirakçısı, həlak olmuş müharibə veteranlarının 102 nəfər dul arvadı, 133 nəfər isə arxa cəbhə veteranı var. Müxtəlif orden və medallara layiq görülmüş Həsənalı Nağıyev, Zeynalabdin Həsənov, Hüseyn Hüseynov, Fərman Sadıqov və Abbas Abbasov bu gün də müharibənin dəhşətlərindən ürəkağrısı ilə danışırlar.

Qeyd edilib ki, ötən əsrin 90-cı illərinin əvvəllərində bəzi üzdəniraq siyasətçilərin keçmişimizə qara yaxmaq üçün həyata keçirdikləri planın tərkib hissəsi kimi, İkinci Dünya müharibəsi veteranları da diqqətdən kənarda qalmışdı. Lakin tarixi Qayıdışdan sonra ulu öndərimiz Heydər Əliyev müharibə və arxa cəbhə veteranlarına qayğı göstərdi, onların sağlamlıqlarının qayğısına qalınması, reabilitasiyalarının daim diqqət mərkəzində saxlanılması üçün müvafiq qurumlara tapşırıqlar verdi.

Ardı 3-cü səhifədə

Dövlət başçısının sərəncamları ilə Qələbə Günü ərəfəsində müharibə və arxa cəbhə veteranlarına, eləcə də vəfat edənlərin dul arvadlarına birdəfəlik pul yardımı edildi. Bu gün də ümummilli liderimiz tərəfindən əsası qoyulmuş siyasət Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə başçısının sərəncamları ilə İkinci Dünya müharibəsi veteranlarına təqaüdlər verilir, onlar minik maşınları ilə pulsuz təmin olunurlar. İkinci Dünya müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında ölkə başçısı tərəfindən hər il Qələbə Günü ərəfəsində imzalanan sərəncamlar da veteranlara göstərilən diqqət və qayğının təzahürüdür.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurası Şərur rayon təşkilatının sədri Nəsib Quliyev, ağsaqqallar adından isə Vasif Kazımov çıxış edərək veteranlara göstərilən diqqət və qayğıya görə ölkə başçısına və Ali Məclisin Sədrinə minnətdarlıqlarını bildiriblər.

Sonra orta məktəb şagirdlərinin ifasında vətənpərvərlik mövzusunda şeirlər səsləndirilib.

"Arpaçay" instrumental ansamblının çıxışı alqışlarla qarşılanıb.

Tədbir çay süfrəsi arxasında davam edib.

## Babək rayonu



1941-1945-ci illər müharibəsində alman faşizmi üzərində Qələbənin 73-cü ildönümü Babək rayonunda da qeyd edilib. Bu münasibətlə keçirilən tədbirdə Babək Rayon İcra Hakimiyyətinin, idarə, müəssisə və təşkilatların kollektivləri, eləcə də rayon sakinləri iştirak ediblər.

Əvvəlcə İkinci Dünya müharibəsində həlak olmuş babəklilərin xatirəsinə rayon mərkəzində ucaldılmış abidə ziyarət edilib, önünə gül dəstələri qoyulub, müharibədə həlak olmuş qəhrəman övladlarımızın xatirəsi ehtiramla yad edilib.

Sonra tədbir çay süfrəsi arxasında davam etdirilib. Tədbirdə Babək Rayon İcra Hakimiyyətinin başçısı Rasim Hüseynov çıxış edərək bildirib ki, 1941-1945-ci illər müharibəsinə Babək rayonundan 1275 nəfər yollanıb. Müharibəyə gedənlərdən 1058 nəfəri qəhrəmancasına həlak olub, bir çoxu müxtəlif orden və medallarla təltif edilib.

Bildirilib ki, bu gün 73-cü ildönümünü qeyd etdiyimiz qələbənin qazanılmasında iştirak etmiş qəhrəman veteranlarımıza xalqımızın böyük oğlu Heydər Əliyevin ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışından sonra lazımi səviyyədə diqqət yetirilməyə başlanılıb. Hər il 9 May – Qələbə Günü ölkədə böyük təntənə ilə qeyd edilir, həlak olmuş soydaşlarımız ehtiramla yad olunur, yaşayanlara yüksək səviyyədə qayğı göstərilir.

Vurğulanıb ki, dövlətimiz tərəfindən görülən tədbirlər belə deməyə əsas verir ki, erməni qəsbkarlarının işğal etdiyi torpaqlarımız da tezliklə azad ediləcək, alman faşizmini məğlub etdiyimiz kimi, erməni vandalizmi üzərində də şanlı qələbə çalacağıq.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurası Babək rayon təşkilatının sədri Həsən Həsənov çıxış edərək dövlətimiz tərəfindən onlara göstərilən qayğıya görə minnətdarlığını bildirib.

Sonda veteranlara hədiyyələr təqdim olunub.

## Ordubad rayonu

*Ordubad rayonunda Qələbənin 73-cü ildönümünə həsr olunmuş tədbirdən əvvəl 1941-1945-ci illər müharibəsi iştirakçılarının şərəfinə ucaldılmış Xatirə kompleksi ziyarət edilərək abidə önünə gül dəstələri qoyulub.*



Sonra Ordubad şəhərindəki "Emin" şadlıq evində qələbə gününə həsr edilmiş tədbir keçirilib. Çay süfrəsi arxasında keçirilən tədbirin aparıcıları qeyd ediblər ki, İkinci Dünya müharibəsinin iştirakçısı olan həmyerlilərimiz faşizm üzərində Qələbənin qazanılmasında qəhrəmanlıq və şücaət nümayiş etdiriblər. Onların göstərdikləri igidliklər xalqımızın qəlbinə əbədi həkk olunub.

Tədbirdə Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov çıxış edərək 1941-1945-ci illər müharibəsində Qələbənin 73-cü ildönümü münasibətilə veteranları təbrik edib. Bildirilib ki, Ordubad rayonunun qəhrəman övladları da müharibə illərində həm ön, həm də arxa cəbhədə böyük fədakarlıq və igidlik nümunələri göstəriblər. Ordubad rayonundan cəbhəyə yollanan Nəcəfqulu Rəfiyev 1944-cü ilin yayında Minsk şəhəri yaxınlığında gedən döyüşlərdə, Baronoviçi şəhərinin azad edilməsində şücaət və qəhrəmanlıq göstərib, SSRİ Ali Soveti Rəyasət Heyətinin 1944-cü il 9 sentyabr tarixli Fərmanı ilə "Sovet İttifaqı Qəhrəmanı" adına layiq görülüb. Müharibə başlanandan Ordubad rayonundan cəbhəyə 3387 nəfər yollanıb, əksəriyyəti qanlı döyüşlərdə qəhrəmancasına həlak olub. Onlardan Buhenvaldın əfsanəvi qəhrəmanı Əkbər Ağayev, 4-cü Ukrayna cəbhəsinin döyüşçüsü, Polşa və Fransa ərazilərində partizan hərəkatının fəal iştirakçıları Məmməd Zeynalov, Qərib Quliyev, Dnepropetrovsk və Krivoy-Roq şəhərlərinin azad olunmasında iştirak edən minamyotçu Ələsgər Vəlibəyov, İtaliyada partizan hərəkatının fəal iştirakçıları yazıçı-jurnalist Cəlil Rəfiyev, "Mixaylo" kimi tanıdığımız Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadə ilə birlikdə vuruşan "Ave" ləqəbli Əvəz Abdullayev, Həsənqulu Əliyev, Stalinqrad döyüşlərində fəal iştirak edənlərdən Əli İbrahimov, Əşrəf Bayramov, Əli Məmmədov, Nuru İsmayılov, Qafqaz döyüşlərinin iştirakçılarından Əlməddin Salehov, Ələkbər Cəlilov, həmçinin Səyyad Şəfiyev, Məmməd Babayev, podpolkovnik Əkbər Fəttahov və başqaları Qələbə uğrunda hünər və rəşadət göstəriblər.

Elşad Məmmədov deyib ki, İkinci Dünya müharibəsində şücaət göstərən Vətən övladlarının xidmətləri bu gün dövlətimiz tərəfindən layiqincə qiymətləndirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev hər il 1941-1945-ci illər müharibə iştirakçılarına, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında Sərəncam imzalayır.

Tədbirdə Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatının sədri Qürbət Rzayev, Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının Ordubad rayon təşkilatının sədri Fərrux Nağızadə, muxtar respublikanın Əməkdar mədəniyyət işçisi Vilayət Bağırov çıxış edərək müharibə veteranlarını Qələbə Günü münasibətilə təbrik edib, o illəri yada salaraq arxa cəbhədə insanların "Hər şey qələbə üçün!" devizi altında göstərdikləri fədakarlıqlardan, həmin dövrün gətirdiyi məhrumiyyətlərdən söz açıblar.

Müharibə veteranı Məhəmmədəli Sultanov onlara göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirib.

Tədbirə Ordubad Rayon Mədəniyyət Evinin "Dübəndi" instrumental ansamblının ifa etdiyi rəngarəng musiqi nömrələri bayram tədbirinə xüsusi ab-hava qatıb.

Tədbirin sonunda müharibə veteranlarına hədiyyələr təqdim olunub.

## Culfa rayonu



Alman faşizmi üzərində tarixi Qələbənin 73 illiyi Culfa rayonunda da qeyd olunub. Bu münasibətlə keçirilən tədbirdə rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər. Tədbir iştirakçıları əvvəlcə rayon mərkəzində 1941-1945-ci illər müharibəsi iştirakçılarının xatirəsinə ucaldılmış abidənin önünə gül dəstələri qoyub, müharibədə həlak olmuş qəhrəman həmyerlilərimizin xatirəsini ehtiramla yad ediblər. Sonra çay süfrəsi arxasında davam etdirilən tədbirdə qeyd olunub ki, bəşər tarixinin ən dəhşətli müharibəsində Qələbənin qazanılmasında Azərbaycan xalqının övladları da qəhrəmanlıq göstəriblər. Yüz minlərlə azərbaycanlı müxtəlif diviziya və hərbi birləşmələrin tərkibində ön cəbhəyə göndərilib. Xalqımızın fədakarlığı ön cəbhədə olduğu kimi, arxa cəbhədə də müharibənin taleyini həll edib. Bakı döyüşən ordunun yanacağa olan tələbatının 70 faizdən çoxunu verərək Qələbənin qazanılmasında əvəzolunmaz rol oynayıb.

Müharibədə Naxçıvanın da mərd oğul və qızları düşmənə qarşı rəşadətlə vuruşaraq şücaətlər göstəriblər.

İkinci Dünya müharibəsi illərində xalqımızın övladlarının keçdiyi şərəfli döyüş yolu bu gün müstəqil Azərbaycanımızın müdafiəsində mətanətlə duran gənclərimiz üçün parlaq nümunədir.

Tədbirdə çıxış edən Culfa Rayon İcra Hakimiyyətinin başçısı Şükür Babayev müharibə veteranlarını Qələbə Günü münasibəti ilə təbrik edərək vurğulayıb ki, bu Qələbənin qazanılmasında culfalıların da rolu olub. 1941-1945-ci illər müharibəsində, ümumilikdə, Culfa rayonundan 1200-ə qədər insan iştirak edib və yarıdan çoxu həlak olub. Onların böyük əksəriyyəti döyüşlərdə göstərdiyi şücaətlərə görə müxtəlif orden və medallarla təltif edilib.

Müharibə veteranlarına ümummilli liderimiz Heydər Əliyev tərəfindən daim diqqət göstərildiyini deyən İcra Hakimiyyətinin başçısı bu diqqət və qayğının ölkə başçısı cənab İlham Əliyev və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən uğurla davam etdirildiyini vurğulayıb.

Sonra müharibə veteranlarına hədiyyələr təqdim olunub.

Müharibə veteranları onlara göstərilən böyük ehtirama görə dövlətimizə minnətdarlıqlarını bildirib, tezliklə işğal altında olan torpaqlarımızda da qələbə gününün qeyd edilməsini arzulayıblar.

Tədbir Culfa Rayon Mədəniyyət Evinin özfəaliyyət kollektivinin çıxışları ilə davam etdirilib.

Səhhətinə görə tədbirdə iştirak edə bilməyən veteranlara evlərində hədiyyələr təqdim olunub.

## Kəngərli rayonu

*Alman faşizmi üzərində tarixi qələbənin 73-cü ildönümü ilə əlaqədar Kəngərli rayonunda keçirilən tədbirin iştirakçıları əvvəlcə Qıvraq qəsəbəsində 1941-1945-ci illər müharibəsi qurbanlarının xatirəsinə ucaldılmış abidəni ziyarət edib, abidə önünə tər güllər düzüblər.*




Tədbir Qıvraq qəsəbəsindəki şadlıq sarayında təşkil olunmuş çay süfrəsi arxasında davam etdirilib. Əvvəlcə Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov çıxış edərək veteranları Qələbə münasibətilə təbrik edib. Bildirib ki, iştirak edən ölkələrin sayına, törədilən qırğınlara və dağıdıcılığına görə bəşər tarixinin ən dəhşətli müharibələrindən sayılan İkinci Dünya müharibəsindəki tarixi Qələbədən 73 il ötür. Faşizm üzərində Qələbənin qazanılmasında Azərbaycanın da əvəzsiz rolu olub.

Kamal Ələkbərov diqqətə çatdırıb ki, İkinci Dünya müharibəsi zamanı Naxçıvan Muxtar Respublikasının əhalisi də döyüşlərdə şücaətlə iştirak edib, cəbhə üçün əllərindən gələni əsirgəməyib. O odlu-alovlu illərdə fədakarlıq göstərən azərbaycanlılardan ibarət təşkil edilmiş 416-cı "Taqanroq", 402-ci "Azərbaycan", 223-cü "Belqrad" və 77-ci "Simferopol" diviziyaları şərəfli döyüş yolu keçib, soydaşlarımızın təxminən yarısı ağır döyüşlərdə qəhrəmancasına həlak olub. 402-ci diviziya Naxçıvanda formalaşdırılaraq cəbhəyə yola salınıb. Həmyerlilərimiz 223-cü diviziyanın tərkibində Macarıstan və keçmiş Yuqoslaviyanın faşistlərdən təmizlənməsində igidlik göstəriblər. Bu da qürurvericidir ki, 416-cı diviziya Şimali Qafqazdan Berlinədək ağır döyüş yolu keçib, diviziyanın əsgərləri Berlində qələbə bayrağını ilk qaldıranların sırasında olublar.

Həmin qanlı-qadalı illərdə müharibəyə Kəngərli rayonundan 800 nəfərdən artıq insan göndərilmişdi. Bu gün Kəngərli rayonunda bir İkinci Dünya müharibəsi veteranı, İkinci Dünya müharibəsində həlak olmuş və ya sonradan vəfat etmiş 22 döyüşçü ailəsi və 24 arxa cəbhə veteranı vardır. Onlar hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar.

Qeyd edilib ki, respublikamız müstəqillik qazandığı ilk illərdə hakimiyyətdə olanlar veteranlara diqqət və qayğını nəinki unutmuşdular, hətta onlara yad nəzərlərlə baxırdılar. Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra 9 May ölkəmizdə Qələbə Günü kimi rəsmiləşdirilərək dövlət bayramları sırasına daxil edilib, müharibə veteranlarının sosial müdafiəsi gücləndirilib, imtiyaz və statusları bərpa olunub.

Vurğulanıb ki, hər il Qələbə Günü ərəfəsində ölkə başçısının imzaladığı sərəncamla İkinci Dünya müharibəsi veteranlarına, müharibədə həlak olanların və sonradan vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik yardım edilir, müharibə iştirakçılarına minik maşınları pulsuz verilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2018-ci il aprelin 20-də imzaladığı növbəti Sərəncama müvafiq olaraq Kəngərli rayonunda yaşayan müharibə veteranlarının da ailələrinə birdəfəlik maddi yardım verilib.

Tədbirdə Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurası Kəngərli rayon təşkilatının sədri İsmayıl Hüseynquliyev, rayon Ağsaqqallar Şurasının sədri Nahaz Səfərov veteranlara göstərilən diqqət və qayğıdan danışıblar.

Rayon Mədəniyyət Şöbəsinin "Kəngər" instrumental ansamblının və uşaq musiqi məktəbləri kollektivlərinin çıxışları alqışlarla qarşılanıb.

Sonra veteranlara hədiyyələr təqdim olunub.

Ardı 4-cü səhifədə

## Şahbuz rayonu



***Alman faşizmi üzərində qazanılan tarixi Qələbənin 73-cü ildönümü münasibətilə Şahbuz şəhərindəki "Yeni Batabat" şadlıq sarayında tədbir keçirilib. Tədbirin iştirakçıları əvvəlcə 1941-45-ci illər müharibəsində iştirak edən qəhrəman oğulların xatirəsinə ucaldılmış abidənin önünə tər qərənfillər qoyublar.***

Tədbirdə rayon İcra Hakimiyyətinin başçısı Rəfael Babayev veteranları Qələbə Günü münasibətilə təbrik edib. Bildirib ki, xalqımızın ümummilli lideri Heydər Əliyev Qələbənin qazanılmasında xidməti olan insanlara daim diqqət göstərib, 1941-1945-ci illərin müharibə veteranlarını "Azərbaycan xalqının qızıl fondu" adlandırıb. Görkəmli dövlət xadiminin Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra 9 may respublikamızda Qələbə Günü kimi rəsmiləşdirilib, dövlət bayramları sırasına daxil edilib, müharibə veteranlarının sosial müdafiəsi gücləndirilib. Ümummilli lider Heydər Əliyev deyirdi: ***"Azərbaycan xalqı İkinci Dünya müharibəsində böyük rəşadət, qəhrəmanlıq nümayiş etdirmiş, həm cəbhədə, həm arxada vuruşaraq, çalışaraq Qələbənin əldə olunmasında öz xidmətlərini göstərmişdir. Bu Qələbə bəşəriyyət tarixində bütün qara qüvvələrə, faşizmə qarşı mütərəqqi qüvvələrin Qələbəsi idi".***

Rəfael Babayev qeyd edib ki, bu gün ulu öndərimizin yolunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də 1941-1945-ci illər müharibəsi iştirakçılarına, arxa cəbhə veteranlarına xüsusi diqqət göstərir, müharibə veteranlarının sosial müdafiəsi ildən-ilə gücləndirilir.

Naxçıvan Muxtar Respublikasında da İkinci Dünya müharibəsi iştirakçılarına və arxa cəbhədə fədakarlıq göstərən əmək adamlarına hərtərəfli qayğı göstərilir. Bu qayğıdan rayonun veteranlarına da pay düşüb. Hər il Qələbə Günü münasibətilə müharibə veteranlarının iştirakı ilə bayram tədbirlərinin keçirilməsi, onlara hədiyyələrin verilməsi və maddi köməkliyin göstərilməsi də bunun bariz nümunəsidir.

Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının Şahbuz rayon təşkilatının sədri Məmməd Bağırov çıxış edərək İkinci Dünya müharibəsi iştirakçılarını bayram münasibətilə təbrik edib, onlara göstərilən yüksək dövlət qayğısından danışıb.

Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatının sədri Rizvan Məmmədov çıxışında vurğulayıb ki, on minlərlə qurban hesabına əldə olunan Qələbəni şahbuzluların da təntənə ilə qeyd etməyə mənəvi haqqı vardır. Çünki qanlı müharibədə minlərlə azərbaycanlının sırasında şahbuzlular da olub. Ulu öndərimizin siyasi xəttinin uğurla davam etdirilməsi nəticəsində bu gün həmin insanlar və onların ailə üzvləri diqqət və qayğı ilə əhatə ediliblər.

İkinci Dünya müharibəsi veteranı Əli Xəlilov, Məmməd Həsənov da çıxış edərək tarixi Qələbənin qazanılmasında azərbaycanlıların şücaətindən, onların fədakar xidmətlərindən, müharibədə minlərlə şahbuzlunun iştirakından və göstərdikləri qəhrəmanlıqdan söhbət açıblar. Onlar göstərilən dövlət qayğısına görə veteranlar adından minnətdarlıqlarını bildiriblər.

Tədbir rayon Mədəniyyət Evinin "Batabat" instrumental ansamblının maraqlı konsert proqramı ilə davam edib.

Sonda İkinci Dünya müharibəsi veteranlarına hədiyyələr təqdim olunub.

## Sədərək rayonu



Çoxlu tarixi hadisələrin şahidi olan, düşmənlə bir addımlıqda ayıq-sayıq dayanan sərhəd bölgəmiz Sədərək rayonunda 1941-1945-ci illər müharibəsində alman faşizmi üzərində qazanılan Qələbənin 73-cü ildönümü münasibətilə keçirilən tədbir bu bölgə sakinləri üçün ikiqat əhəmiyyət daşıyırdı. Çünki bu torpaq elə alman faşizminə bərabər olan erməni vandalizminin əsassız torpaq iddiaları ucbatından dəfələrlə hücumlara məruz qalıb. Lakin sədərəklilər mənfur düşmən qarşısında əyilməyib, bu qədim yurd yerinin düşmən tapdağına çevrilməməsi üçün qəhrəmanlıq göstəriblər. O döyüşlərdə çoxlu şəhidlər verilib.

Tədbirdən əvvəl rayon ictimaiyyətinin nümayəndələri, müharibə veteranları, rayonun müxtəlif idarə, müəssisə və təşkilatlarının əməkdaşları Sədərək kəndindəki Şəhidlər xiyabanına gedərək burada 1941-1945-ci illər və Azərbaycan Vətən müharibəsi iştirakçılarının əziz xatirəsinə ucaldılan abidələrin önünə və burada uyuyan türk əsgərinin məzarı üzərinə gül dəstələri qoyublar. Şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Sonra çay süfrəsi arxasında davam etdirilən tədbirdə rayon İcra Hakimiyyətinin başçısı Həbib İbrahimov çıxış edərək bildirib ki, İkinci Dünya müharibəsində Sədərək kəndindən 462 nəfər iştirak edib. Onların 263 nəfəri qəhrəmancasına həlak olub.

Qeyd edilib ki, müharibə veteranlarının mənzillərlə, şəxsi minik maşınları ilə təmin edilmələri, onların müalicə olunmaq üçün müxtəlif sanatoriyalara, pansionatlara göndərilmələri, digər problemlərinin həll olunması üçün dövlətimiz tərəfindən bütün tədbirlər həyata keçirilir. Ölkə prezidentinin "1941-1945-ci illər İkinci Dünya müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonradan vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında" 2018-ci il 20 aprel tarixli Sərəncamı onlara göstərilən daha bir qayğının ifadəsidir. Sərəncama əsasən Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun yerli orqanları tərəfindən birdəfəlik maddi yardım şamil olunan şəxslərə çatdırılıb, ayrılan məbləğlər həmin şəxslərin plastik bankomat kartlarına köçürülüb. Müavinət alanlar arasında Sədərək sakinləri də vardır.

Rayon İcra Hakimiyyətinin başçısı müharibə və arxa cəbhə veteranlarını Qələbənin 73-cü ildönümü münasibətilə təbrik edib.

Veteranlara hədiyyələrin təqdim olunduğu tədbirdə Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Şurasının Sədərək rayon təşkilatının sədri Əkbər Kərimov və İkinci Dünya müharibəsi veteranı Ələkbər Cabbarov, Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatının sədri Arif Qasımov və həmin təşkilatın Qadınlar Şurasının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Vüsalə Əliyeva çıxış ediblər. Çıxışlarda daha bir qələbənin tez bir zamanda düşmən tapdağı altında olan torpaqlarımızda qeyd ediləcəyinə böyük əminlik ifadə olunub.

Veteranlar dövlətimizin onlara göstərdiyi qayğıdan bəhs edərək öz minnətdarlıqlarını bildiriblər.

Tədbirin bədii hissəsində rayon Mədəniyyət və Turizm Şöbəsinin "Oğuz eli" instrumental ansamblı üzvlərinin ifasında səsləndirilən mahnılar, nümayiş olunan ədəbi-bədii kompozisiya iştirakçılar tərəfindən alqışlarla qarşılanıb.

**Xəbərlər şöbəsi**

## Bir gündə 33 cərrahiyyə əməliyyatı aparılıb



***Ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 95 illiyi münasibətilə Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin həkimləri tərəfindən Culfa rayonunda humanitar tibbi aksiya keçirilib.***

Yüksəkixtisaslı heyət 78 nəfəri ambulator müayinələrdən keçirib. Cərrahi müdaxiləyə ehtiyacı olan 33 xəstə üzərində, əsasən, hemoroidektomiya, fimoz və başqa əməliyyatlar aparılıb. Əməliyyatlar uğurla başa çatdırılıb, xəstələr palatalara köçürülüb, birgünlük müşahidədən sonra evlərinə buraxılıb.

Culfa rayonunun Boyəhməd kəndindən Yeganə Vəlixanova, Xanəgah kəndindən Sultan Yunisli, Dizə kəndindən Nadilə Tağıyeva başqa yerlərə getmədən, ərazidə yerləşən səhiyyə müəssisəsində pulsuz əməliyyat olunduqlarına görə minnətdarlıq ediblər.

Diaqnostika-Müalicə Mərkəzinin həkim və tibb işçiləri yerli həkimlərə tibbi avadanlıqların işləmə qaydalarını da öyrədiblər. Laboratoriyada ümumi analizlərin olunması, infeksiyaların təyini, aparatların işləmə mexanizmi onlara izah edilib.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq belə humanitar aksiyaların muxtar respublikamızın digər rayonlarda da ilboyu keçirilməsi nəzərdə tutulub.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi açıq tender elan edir

Tender 2 lot üzrə keçirilir.

*Lot-1: yaz-yay mövsümü üçün müxtəlif növ əşya əmlaklarının satın alınması*

*Lot-2: hərbi ayaqqabıların satın alınması.*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsində yerləşən Fövqəladə Hallar Nazirliyinin Maliyyə-təsərrüfat şöbəsindən (əlaqələndirici şəxs: Cabbarov Murad Rasim oğlu, tel: 544-48-34) ala bilərlər.

***İştirak haqqı:***
***Lot 1 – 30 manat***
***Lot 2 – 30 manat***
***Hesab: AZ21NABZ12360100000000005944***
***VÖEN: 0200312291***
***Bank: Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsi***
***Kod: 502906***
***VÖEN: 0200087741***
***M/H: AZ88NABZ014517***
***SWIFT: NABZAZ2C***
***İştirak haqqı heç bir halda geri qaytarılmır.***

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 5 iyun 2018-ci il saat $17^{00}$-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 12 iyun 2018-ci il saat $17^{00}$-a qədər Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsində yerləşən Fövqəladə Hallar Nazirliyinin Maliyyə-təsərrüfat şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 13 iyun 2018-ci il tarixdə saat $11^{00}$-da Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsində yerləşən Fövqəladə Hallar Nazirliyində açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## Beynəlxalq Şahmat Festivalının 8-ci turunda da azərbaycanlı şahmatçılar liderliklərini qoruyublar




*Naxçıvan şəhərindəki Şahmat Mərkəzində ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunan "Naxçıvan-2018" Beynəlxalq Şahmat Festivalında 8-ci tura yekun vurulub.*

"A" qrupunun lideri hollandiyalı qrossmeyster Sergey Tiviyakov (2569) bu turda qazaxıstanlı beynəlxalq usta Pak Yevgeninin (2390) müqavimətini qıra bilməyib. Rəqiblər xalları yarı bölməli olublar. Azərbaycanlı qrossmeysterlər Eltac Səfərli (2657) və Qədir Hüseynovun (2654) da görüşü böyük marağa səbəb olub. Bu görüş də "sülh"lə yekunlaşıb. Turnir cədvəlinin üst pillələrində qərarlaşan şahmatçılardan israilli qrossmeyster İlia Smirin (2592) azərbaycanlı qrossmeyster Nicat Məmmədovla (2602), ukraynalı qrossmeyster Vitaliy Bernadskiy (2589) azərbaycanlı beynəlxalq usta Vüqar Əsədli ilə (2470), türkiyəli qrossmeyster Sanal Vahap (2505) isə almaniyalı qrossmeyster İqor Xenkinlə (2557) qarşılaşıb. Bu görüşlərdə Nicat qələbə qazandığı halda, digər iki görüşdə qalib müəyyənləşməyib. Ukraynalı qrossmeyster Anton Korobov (2678) iranlı beynəlxalq usta Təhbaz Araşı (2451) məğlub edib.

Naxçıvanlı zəka sahiblərimizdən beynəlxalq usta Toğrul Həsənzadə (2350) bu turda oyun keçirmədən qələbə qazanıb. FİDE ustalarımızdan Pərviz Qasımov (2329) azərbaycanlı zəka sahibi Ayan Allahverdiyevanı (2002), Sadiq Məmmədov (2293) isə portuqaliyalı qrossmeyster Luis Qaleqonu (2477) sınağa çəkib. Hər iki şahmatçımız məğlubiyyətlə üzləşib. Qrossmeyster Urfan Sevdimalıyev (2397) Xəzər Babazadə (2222) ilə görüşdə ağ-qara taxtanı heç-heçə tərk edib.

Turnir cədvəlinə 6 xalla azərbaycanlı qrossmeyster Nicat Məmmədov və hollandiyalı qrossmeyster Sergey Tiviyakov başçılıq edirlər.

"B" qrupunda isə lider dəyişməz olaraq qalır. Belə ki, Ağdam şahmatçısı Fariz Əhmədov (2146) bu turda da qalib gəlməyi bacarıb. O, Bakı təmsilçisi Rasim Əliyevdən (2180) üstün olub. Hazırda Fariz Əhmədov 7,5 xalla turnir cədvəlinə başçılıq edir. Onu 6,5 xalla 4 zəka sahibi izləyir.

Beynəlxalq Şahmat Festivalının "C" qrupunun lideri, Naxçıvan şahmat məktəbinin yetirməsi Zahid Allahverdiyev (1398) bu turda xal itkisi ilə üzləşib. O, muxtar respublikanın digər təmsilçisi Uğur Həsənli (1243) ilə xalları yarı bölüb. Bundan istifadə edən Bakı təmsilçisi Əli Zuqanov (1299) isə bu turda qalib gələrək liderliyə şərik olub. Hazırda hər iki zəka sahibi 7 xalla turnir cədvəlində liderdir.

**✍ Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir
və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və
Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 344